◆ **Vahid Aslan**

## Yağışı Sevirsən

Mənim otağımda kitab qoxusu,
Sənin otağında yasəmən ətri.
Sənin gözlərinin qaçıb yuxusu,
Mən yaza bilmirəm sonuncu sətri.

Mənim otağımda payız fəslidi,
Sənin otağına yaz gəlib artıq.
Sənin arzuların gül nəfəslidi,
Mənim duyğularım köhnəlib artıq.

Mən şair babayam, bir az əhlikef,..
Sən isə uzanan romantik gecə!
Nə qədər söz verib aldatmışam, eh,.
Yenə inanırsan mənə eləcə.

Nə sözlər yaxamdan əl çəkən deyil,
Nə sən yatmayacan səhərə kimi.
Tək bircə misralıq aşırım qalıb,
Mənim otağımdan şəhərə kimi.

Yağış səsi gəlir bayırdan hələ,
Bəlkə pəncərəmdə hıçqıran sənsən!
Yağışa qoşulub gəlirəm, gözlə!
Bilirəm, yağışı sən də sevirsən!..